AZƏRBAYCANDA BİZNES VƏ PEŞƏKAR ASSOSİASİYALARA DƏSTƏK

BAA-OAA-LLDI-2019 saylı sənədə 4 nömrəli Əlavə

ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID)
İqtisadi artım, Təhsil və Ətraf Mühit (E3)
Yerli Dayanıqlılıq Ofisi

Yerli qurumların rəhbərlik etdiyi inkişaf innovasiyaları barədə Agentliyin Genişmiqyaslı Elanı

USAID / Azərbaycanın prosedurlarına görə növbəti addımlardan biri müsabiqə yolu ilə seçilmiş qrupları Azərbaycanın Bakı şəhrində keçiriləcək iki günlük birgə yaradıcılıq/dizayn seminarına qoşulmağa dəvət etməkdir. Bu tədbirdə, USAID, Azərbaycan Hökuməti və özəl sektordan olan tərəfdaşlarımız, habelə rəqabət prosesindən seçilmiş qruplar bu Əlavədə göstərilən məqsədlərə çatmaq üçün nəzərdə tutulan fəaliyyətləri birgə işləyib hazırlamaq üçün bir araya gələcəklər.

Qlobal COVID-19 pandemiyası fonunda USAID/Azərbaycan tərəfdaşlarına və maraqlı tərəflərə bildirmək istəyir ki, fiziki olaraq həyata keçiriləcək seminarın planlaşdırılmasında gecikmələr var. Beləliklə, seminar pandemiya ilə bağlı vəziyyət yaxşılaşana qədər təxirə salınır. Maraq ifadələrinin oxunması davam edir. Maraq ifadəsi təqdim edənlər önümüzdəki həftələrdə müraciətlərinin statusu barədə bildiriş alacaqlar.

Sizi əmin etmək istərdik ki, bu təşəbbüs/layihə USAID/Azərbaycanın prioritet istiqamətlərindən biridir və bütün iştirakçılar üçün təhlükəsiz olduqda prosesi davam etdirəcəyik.

Hörmətlə,

/imza var/

Robert Klaussen
Razılaşma və müqavilələrin bağlanması üzrə regional nümayəndə